# Qarabağ fatehləri

***Bu yazımızda silsilə şəklində Qarabağ fatehlərimizdən bəhs edəcəyik. 44 günlük müharibədə əsrə bərabər gün yaşayıb, öz qanları ilə tarix yazan, dastana çevrilən igidlər... Onlar haqqında çox danışılacaq, nəğmələr qoşulub, dastanlar yazılacaq. İllər, əsrlər keçəcək amma azadlıq uğrunda canından keçən şəhidlərimizin, qazilərimizin adları əsla unudulmayacaqdır. Nə gözəl deyib şair:***

**Bayraqları bayraq yapan üstündəki qandır**
**Torpaq uğrunda ölən varsa vətəndir!**

Bəli, bu igidlər vətən uğrunda canlarından keçərək, tariximizdə şərəfli bir səhifə açdılar. "Hər canlı ölümü dadacaqdır". Qarabağ fatehləri isə ölümləri ilə ölümsüzlük qazandılar. Şəhidlər ölməz, vətən bölünməz!

Qarabağ dastanını öz qanıyla yazan fatehlərimizdən biri də, cəsur döyüşçü, baş leytenant **Ramin Hüseynağa oğlu Bayramovdur**.




O, 8 oktyabr 1979-cu ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya gəlmişdir. O, 1996-2000-ci illərdə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. Ramin 2005-ci ildə Murovda həqiqi hərbi xidmətdə olmuşdur. Hərbidən təxris olunduqdan sonra Bakıya gəlmiş, ailə qurub burada yaşamışdır. Cəsur döyüşçü, Qarabağ fatehlərindən olan Ramin Bayramov eyni zamanda gözəl ailə başçısı idi. Onun Zəhra, Yusif və Yunis adlı üç övladı var. Mövzu bəhsi vətən olmasa onlardan bir dəqiqə ayrı qala bilmərəm deyərdi.



Ramin Bayramov işğal olunmuş torpaqların azadlığı uğrunda başlayan müharibəyə könüllü olaraq qatılmış, döyüş meydanında böyük şücaətlər göstərmişdir. Baş leytenant Ramin Bayramov cəsarəti, qorxmazlığı ilə yanaşı, insanlığı, səmimiliyi, əsgərlərinə qarşı qayğıkeşliyi ilə tanınmış və sevilmişdir. Əsgərlərindən biri onun



haqqında deyir: "Baş leytenant Bayramov bizim bölük komandiri idi. Gülərüz, zarafatcıl, dostcanlı idi." Bayramov onların xatirəsində məhz bu müsbət məziyyətləri ilə qalmışdı. Vətəni qorumaq və keşiyində durmaq onun üçün bir şərəf idi. Onun yeganə arzusu Vətənə layiq oğul olmaq, işğal altında qalan torpaqları mənfur düşmənlərdən xilas edərək, o torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaq idi. Üç övlad atası olan Ramin bir an belə düşünmədən vətən uğrunda döyüşlərə atılmış, oktyabrın 31-də Qubadlı-Laçın istiqamətində gedən qızğın savaşda igidliklə şəhidlik məqamına yüksəlmişdir. O, noyabrın 11-i doğulduğu Alar kəndində dəfn olunmuşdur. Ramin Hüseynağa oğlu Bayramov göstərdiyi şücaətlərə görə,



ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***Oğuz Alparslan adlı bir əsgəri Qubadlı zirvəsi uğrunda döyüşdən və komandirinin şücaətlərindən belə bəhs edir: "Sübh çağı erməni dəstələri ilə qızğın döyüş başladı. Günorta saatları idi, ermənilər eyni zamanda iri çaplı silahlardan istifadə edirdilər, şəhidlərimiz var idi. Erməni snayperləri meşələrdə pusqu qurmuş və uzaqdan atəş açırdılar. Minamyot mərmisi isə lap yağış kimi yağırdı. Mərmilərdən biri, Bayramovun olduğu yerə düşdü. Əsgərlərdən Kamran Səmədov ağır yaralandı. Lakin xoşbəxtlikdən komandir yara almamışdı.*** O, əsgərləri ilə birlikdə çiyin-çiyinə döyüşürdü. Lakin artıq yerləri bəlli olmuşdu və ölüm qaşla-göz arasında idi. O, qorunmaq üçün mövqe dəyişmək istəyəndə snayper gülləsinə tuş gəldi və ağır yaralandı. Əsgərlərdən ikisi Əlniyaz və Tural komandir və digər yaralı əsgəri atəş altından çıxarmaq üçün var gücləri ilə çalışırdılar, çox az qalmışdı ki, yenə o səs! Minamyot mərmisi düz onların yanına düşmüşdü. Komandir Bayramlı və əsgər Səmədov şəhid oldular. Onlara yardım edən əsgərlər də yaralandı. Baş leytenant Bayramov deyirdi ki, içimizdə Oğuz kimi 35 yaşı olan da var, Qasımov kimi 20 yaşı olan da, burada hamımız əsgərik!"

Bəli, azadlıq uğrunda mübarizəyə atılan müsəlləh əsgərləri birləşdirən tək amal Qarabağın azadlığı, zəfər arzusu idi. Onların yeganə şüarı bu idi: "Biz qələbə ilə dönməliyik və dönəcəyik də." Elə də oldu! Azadlıq uğrunda mübarizə qələbə ilə bitdi. Kimisi şəhid, kimisi qazi olaraq geri döndü. Qisas isə qiyamətə qalmadı. Qarabağ Azərbaycandır!

Bu yazımızda silsilə şəklində II Qarabağ müharibəsində şücaət göstərən qürurumuz, fəxrimiz olan vətən keşikçilərindən bəhs edəcəyik. 44 günlük müharibədə əsrə bərabər gün yaşayıb, öz qanları ilə tarix yazan, dastana çevrilən fatehlərdən danışacağıq... O fatehlər ki, ölümü ilə ölümsüzlük qazanmışlar.

Ölüm labüd sondur. Hər canlı ölümü dadacaqdır. Şair Nəcib Fazil Qısakürək nə gözəl deyir:

**Qapı qapı bu dünyanın son qapısı ölümsə**
**Hər qapıdan keçib o qapıda gülümsə!**

Bəli, ölüm qaçılmaz bir sondur. Amma ölümlərin ən gözəli, ən şərəflisi, zirvəsi isə şəhidlikdir. Bu məqama isə yalnız seçilmişlər layiqdir.

Bu yazımızda üç şəhidimizin şərəfli döyüş yolundan, azadlıq uğrundakı mücadiləsindən bəhs edəcəyik.



**Taleh Zaur oğlu Əlizadə**

Taleh Zaur oğlu Əlizadə 29 noyabr 1995-ci ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya gəlmişdir. Alar kənd 2 saylı tam orta məktəbi bitirən Taleh elə həmin il, 2013-cü ildə Qazax rayonunda hərbi xidmətdə olmuşdur. Əzmkarlığı, cəsurluğu, bacarığı ilə seçilən Taleh müxtəlif kurslarda iştirak etmiş, baş kəşfiyyatçı kimi fəaliyyət göstərmiş, 2014-cü il avqust ayında hərbi xidmətini başa vurmuşdur.

Taleh vətənpərvərliyi ilə yanaşı gözəl və mehriban ailə başçısı idi. Onun Hüseyn adlı 2 yaşlı bir oğlu var.

***O, 21 sentyabr 2020-ci il tarixində hərbi təlimlərdə iştirak etmiş, müharibə başlayan gündən ən qızğın döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. Taleh Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmiş, işğal altında qalmış torpaqlarımızın alınmasında qəhrəmanlıqla şücaət göstərmişdir. O, cəsarət və qorxmazlığı ilə yanaşı, səmimi insan, etibarlı yoldaş, sadiq dost idi. Böyük bir cəsarətlə vuruşur, güllə yağışının altında yaralı və şəhid yoldaşlarını döyüş meydanından çıxarırdı. Taleh oktyabr ayının 4-də Füzuli döyüşlərində əsgər yoldaşını xilas edərkən güllə yarası almış, buna baxmayaraq qısa müddət sonra yenidən könüllü olaraq döyüşə, yoldaşlarının yanına qayıtmışdır.***

O, oktyabrın 19-da Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Şəhidlik zirvəsinə yüksələn Taleh 20 oktyabr tarixində doğulduğu Alar kəndində torpağa tapşırılmışdır.

Taleh Zaur oğlu Əlizadə göstərdiyi şücaətlərə görə, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



**Əkbər Azər oğlu Hüseynli**

Əkbər Azər oğlu Hüseynli 15 oktyabr 2001-ci ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya göz açıb. İlk təhsilini H.Əliyev adına 1 saylı orta məktəbdə alan Əkbər, orta təhsilini Bakı Sosial İqtisad Kollecində davam etdirmişdir.O, təhsilini yarımçıq qoyub könüllü olaraq 15 oktyabr 2019-cu ildə həqiqi hərbi xidmətə yollanmışdır. Vətən Müharibəsinin ilk günlərindən isə ön cəbhədə qəhrəmancasına vuruşmuş, Murov yüksəkliyinin alınmasında xüsusi igidliklər göstərmişdir. O, şiddətli döyüşlərdə yaralansa da, qısa müddət sonra yenidən ön cəbhəyə, yoldaşlarının yanına qayıtmış, Goranboy-Tərtər istiqamətində gedən şiddətli döyüşlərdə iştirak etmiş, işğal altında qalan torpaqlarımızın alınmasında şücaət göstərərək şəhidlik məqamına yüksəlmişdir.

Evin tək oğul övladı olan Əkbər vətənpərvərliyi, cəsarəti, nümunəviliyi ilə yoldaşları arasında böyük rəğbət qazanmış, neçə yaralı əsgər yoldaşını döyüş meydanından xilas etmişdir. Onun yeganə arzusu canı-qanı bahasına olsa belə vətəni mənfur düşmənlərdən azad etmək idi.

Qeyd edək ki, qızğın döyüşlərdə şəhidlik zirvəsinə ucalan Əkbərdən ailəsi uzun müddət idi ki, heç bir məlumat ala bilmirdi.

Ölümü ilə ölümsüzlük qazanan Əkbər 17 dekabr 2020-ci ildə doğulduğu Alar kəndində torpağa tapşırıldı!



**Bilal Novruz oğlu Rzayev**

Bilal Novruz oğlu Rzayev 15 yanvar 1997-ci ildə Cəlilabad rayonunun Alar kəndində dünyaya göz açıb. H.Əliyev adına 1 saylı orta məktəbi bitirən Bilal hərbi xidmətə yollanmış, ləyaqətlə vətən borcunu yerinə yetirmişdir.

***Bir neçə il əvvəl atası dünyasını dəyişdikdən sonra Bilal təkbaşına ailənin yükünü çiyinlərinə götürərək, öz zəhməti ilə, çətinliklə də olsa ailəsini dolandırmışdır. Bu məhrumiyyətlərə baxmayaraq, o Vətən müharibəsi başlayanda, bir an belə düşünmədən könüllü olaraq, ön cəbhəyə yollanmışdır. Bilal İkinci Qarabağ müharibəsinin ilk günlərindən ön cəbhədə böyük qələbələr çalan ordumuzun sıralarında mətanətlə xidmət göstərmişdir. Ailəsini, isti yuvasını soyuq səngərə dəyişən Bilal Rzayev son nəfəsinə qədər vətən uğrunda igidliklə vuruşmuşdur.***

***Onun döyüş yolu Ağcabədi istiqamətindən başlamışdır. Bilal Füzuli və Qubadlı uğrunda gedən qızğın döyüşlərdə şücaət göstərmiş, qəhrəmancasına şəhid olmuşdur.***

***Şəhidlik zirvəsinə yüksələn Bilal Rzayev 24 noyabr 2020-ci il tarixində doğulduğu Alar kəndində dəfn olunmuşdur.***

**Eşqanə Babayeva**